Kərimli Aynur[7]

# AZƏRBAYCAN DİLİNDƏ NƏTİCƏ BUDAQ CÜMLƏLƏRİNİN STRUKTUR XÜSUSİYYƏTLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ BAĞLAYICI VASİTƏLƏRİN ROLU

Tabeli mürəkkəb cümlə dilin zəngin semantik və struktur xüsusiyyətlərə malik olan vahidlərindən biridir. XX əsrdən etibarən dilçilikdə daim diqqət mərkəzində olmuşdur və geniş tədqiqat obyektinə çevrilmişdir. Tabeli mürəkkəb cümlənin quruluş tiplərinin düzgün qiymətləndirilməsi onun qrammatik təbiətinə semantik-qrammatik mövqedən yanaşılmasını şərtləndirir. Baş və budaq cümlənin mövqeyi də mürəkkəb cümlənin struktur-semantik tiplərinin müəy-yənləşdirilməsində mühüm rol oynayır. Mürəkkəb cümlə sistemində xüsusi yer tutan zərflik budaq cümlələrinin bir növü də nəticə budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Bu məqalədə biz Azərbaycan dilində nəticə budaq cümləli tabeli mürəkkəb cümlələr üçün xarakterik olan struktur xüsusiyyətlərin öyrənilməsində bağlayıcı vasitələrin rolundan bəhs edəcəyik.

Nəticə budaq cümləsi dilimizdə ən az öyrənilən budaq cümlələrindəndir. Dilimizdə nəticə budaq cümləsinin varlığı barədə ilk dəfə Ə.Dəmirçizadə fikir söyləmişdir. O, nəticə budaq cümləsinə tərif verir və “buna görə də, bunun üçün də” bağlayıcıları ilə baş cümləyə bağlanan budaq cümlələrə aid misal göstərir. (8, s.482)

Z.X.Tağızadə də öz namizədlik dissertasiyasında, Ə.P.Mahmudov rus məktəbləri üçün yazdığı “Azərbaycan dilinin qrammatikası” adlı kitabında, H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikasına aid xülasə” adlı əsərində, Q.M.Həsənov “Dəhnamə”dəki tabeli mürəkkəb cümlələr haqqında” adlı məqaləsində nəticə budaq cümləsindən danışırlar.

Azərbaycan dilinin yazılı abidələrindən alınan həmin faktlar onu sübut edir ki, nəticə budaq cümlələri dilimizdə qədim dövrlərdən başlayaraq işlənən budaq cümlə növlərindəndir. Nəticə budaq cümlələri haqqında daha müfəssəl məlumatı isə H.Ş.Şirəliyev vermişdir. (8, s.483)

Nəticə budaq cümləli tabeli mürəkkəb cümlələr bir qayda olaraq, səbəb-nəticə simmetriyası üzrə məna əlaqəsinə girir. Baş cümlədə ifadə olunan iş və ya hökm- səbəb, budaq cümlə isə onun nəticəsi kimi çıxış edir. Nəticə budaq cümləsi budaq cümlənin baş cümlədəki işin görülüb-görülməməsindən asılı olaraq, ya real, həqiqətdə mövcud olan nəticəni, ya da qeyri-real, nəzərdə tutulan nəticəni ifadə etməsinə görə iki qismə bölünür:

1. Real nəticə bildirən tabeli mürəkkəb cümlələrin baş cümlələrində iş, əlamət və keyfiyyət artıq mövcuddur:

Orxan Yavəri niyə acıladı ki, o da indi bizim günümüzü zəhər-zəqquma döndərib. (İ.Məlikzadə)

2.Qeyri-real nəticə bildirən tabeli mürəkkəb cümlənin baş cümləsində iş, əlamət və vəziyyət mövcud deyildir; mövcud ola bilər və ya onun baş verməsi qeyri-mümkündür: (4, s.12-13)

Sizin bu ittifaqınız baş tutub ki, indi mənə qarşı durasınız? (N.Vəzirov)

Nəticə budaq cümləli tabeli mürəkkəb cümlənin özünəməxsus cəhətləri onun struktur xüsusiyyətlərində, quruluşunda meydana çıxır. Bu səbəbdən nəticə budaq cümlələrinin struktur xüsusiyyətlərinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Nəticə budaq cümləli tabeli mürəkkəb cümlənin struktur xüsusiyyətlərini öyrənərkən, onun komponentlərini bağlayan vasitələr, komponentlərin sıralanması, tabeli mürəkkəb cümlənin struktur tipləri, təkamül meylləri və s. kimi məsələləri qeyd etmək lazımdır.

Mürəkkəb cümlənin komponentləri arasında ilk növbədə semantik bütövlük olsa da, mürəkkəb bir vahid yaratmaq üçün onlar mütləq sintaktik münasibətə girməli olurlar. Tabeli mürəkkəb cümlənin tərkib hissələri arasındakı bu sintaktik münasibət müxtəlif bağlayıcı vasitələrlə ifadə olunur. (4, s.38)

Zərflik budaq cümləsinin bir növü olan nəticə budaq cümlələri komponentlərin bağlanma vasitələrinə görə zəngindir. Nəticə budaq cümlələrinin baş cümləyə bağlanmasında bağlayıcılar və bağlayıcı sözlər, ədat, intonasiya, əvəzliklər mühüm rol oynayır.

Azərbaycan dillində bağlayıcılar tabeli mürəkkəb cümlənin komponentlərini bağlayan ən əsas bağlayıcı vasitədir. Bağlayıcılar mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirməklə bərabər, cümlənin ümumi mənasına da təsir edir və intonasiya yükünün xeyli hissəsini öz üzərinə götürür, beləliklə də, mürəkkəb cümlənin daşıdığı əsas qrammatik mənanı formal əlamətlərlə daha da qabarıq şəkildə nəzərə çarpdırır. Bu bağlayıcılar bağladıqları komponentlərdən birinin digərindən asılı vəziyyətə düşməsinə, birinin digərinə tabe olmasına ciddi təsir edir. Akademik Kamal Abdullayev bağlayıcılar haqqında yazır: "Bağlayıcıların rolu ondan ibarət olur ki, onlar mürəkkəb cümlə hissələri arasındakı münasibətlərin dərk edilməsində çoxyozumluluğa imkan vermir, bu halı qarşısını kəsir və əslində hissələr arasında struktur-qrammatik münasibətləri konkretləşdirməyə xidmət göstərirlər." (5, s.165) Tabelilik bağlayıcıları müxtəlif budaq cümlələri baş cümləyə bağlaya bilir.

Azərbaycan dilində nəticə budaq cümləsini baş cümləyə bağlayan bağlayıcılar kəmiyyətcə çoxluq təşkil edir. Nəticə budaq cümlələrinin ən çox işlənən növü ona görə də, buna görə də, onun üçün də, bunun üçün də, belə ki, odur ki tipli nəticə bağlayıcılarının iştirakı ilə yaranan növüdür. Bu bağlayıcıların işləndiyi budaq cümlələr baş cümləyə zəif surətdə bağlanır, yəni, budaq cümlə baş cümlədən daha az asılı olur. Məsələn:

1. O, Kərbəlayi İbixanın qızı Səkinəni görüb ağlı zayıl oldu, odur ki, ona “zayıl oldu” deyilməsini başa düşmək olar. (İ.Əfəndiyev)

2. Sabir sabah konservin birini açıb onlara paylayacaqdır, buna görə də mən yemək hazırlamaq üçün narahat olmadım. (M.İbrahimbəyov)

3.Cinlər, əjdahalar Günü sevmirlər, onun üçün də Gün doğanda yoxa çıxırlar. (Əsatirlər, əfsanə və rəvayətlər)

4.El arasında həmin daş o birilərinin anası hesab olunub, bunun üçün də orada olan balaca daşlar onun balaları hesab olunur. (Əsatirlər, əfsanə və rəvayətlər)

Baş cümləyə yalnız ki bağlayıcısı və intonasiya ilə bağlanan nəticə budaq cümlələri də vardır. Məsələn:

Dövlət xəzinəsindən Xorasana gətirilən sərvət vaxtında çatmalıdır ki, onlar planladıqları işləri həyata keçirsinlər. (Ə.Məmmədxanlı)

Mürəkkəb cümlələr yazılı ədəbi dilimizin sintaktik quruluşundan daha çox, canlı danışıq dili sintaktik qanunlarına uyğun gəlir. Məlumdur ki, danışıq dilində bağlayıcılar az işlədilir və hətta bəzi bağlayıcıların, məsələn, “və” bağlayıcısının yazılı ədəbi

---

7 ADU

dilimizdə əsrlərlə işlənməsinə baxmayaraq, o, xalq danışıq dilinə keçə bilməmişdir. Bu, dilin tarixi inkişaf prosesi ilə bağlıdır. Bağlayıcısız mürəkkəb cümlələr ümumxalq danışıq dilində öz rəngarəngliyi və kəmiyyətcə üstünlüyü ilə seçilsə də, bu sahədə tədqiqat bir zərurət kimi yalnız son zamanlar ortaya çıxmışdır. (7, s.211)

Bağlayıcısız forma daha qədim olmaqla yanaşı, ünsiyyətin mühüm vasitəsi kimi, canlı dildə daha çox işlənir və rəngarəng xüsusiyyətləri ilə diqqəti daha çox cəlb edir. Bağlayıcısız işlənən nəticə budaq cümlələri yalnız intonasiya ilə baş cümləyə bağlana bilir. Mürəkkəb cümlələrin ümumi axını ilə müşayiət olunan intonasiya tabeli mürəkkəb cümlənin formalaşmasında spesifik funksiya daşıyır; "eyni tərkib hissələrdən düzələn mürəkkəb cümlə intonasiyadan asılı olaraq ya tabesiz, ya da tabeli mürəkkəb cümlə kimi müəyyənləşir. (1, s. 128) "Şifahi nitqdə intonasiya öz rolunu hələ də saxlamaqdadır. Yazıda bağlayıcılara üstünlük verilsə də, şifahi nitqdə intonasiyanın köməyi ilə fikri daha sürətlə, daha asan və emosional ifadə etmək olur. Bu cümlələr sual intonasiyalı baş cümlələr də ola bilər. (2, s.3) Məsələn:

1. Bir şey bilirəm bu sözü deyirəm. (M.İbrahimov)
2. Sizin bu ittifaqınız baş tutub ki, indi mənə qarşı durasınınz? (N.Vəzirov)

Baş cümləyə ki bağlayıcısı və ya intonasiya ilə bağlanan nəticə budaq cümləli tabeli mürəkkəb cümlələrin baş cümləsində bəzən bəs, məgər ədatları, mı, mi, mu, mü sual şəkilçiləri də işlənir və bu ədatlar mənanı daha da gücləndirir. Məsələn:

1. Mən bir belə canlını aparıb gedirəm, bəs sən niyə bir canını gətirib çıxara bilmirsən. (Əsatirlər, əfsanə və rəvayətlər)
2. Padişahın xəzinəsində bir belə pul varmı ki, indi bizə paylasın. (Əsatirlər, əfsanə və rəvayətlər)
3. Mağaranın çıxışı böyükdürmü ki, oraya zirehli maşın daxil olsun. (Azərbaycan nəşri antologiyası. V cild)
4. Məgər Bəhmən tüfəng tutmağı öyrənib ki, indi bizə tüfəng çəkir. (İ.Məlikzadə)

Əvəzliklər tabeli mürəkkəb cümləni təşkil edən baş və budaq cümlələr arasında əlaqə yaranmasında, bütövlükdə, tabeli mürəkkəb cümlənin bir nitq vahidi kimi formalaşmasında, tam, bitkin semantikaya malik olmasında, komponentlər arasında əlaqə yaranmasında mühüm rol oynayır. Azərbaycan dilində sual əvəzlikləri ilə formalaşan nəticə budaq cümlələri də çoxluq təşkil edir. Bu sual əvəzliklərinə kim, nə, hara, niyə, nə cür, nə üçün, hanı, havaxt, haçan, neçə, nə qədər və s. aiddir. Bu sual əvəzliklərinin işləndiyi nəticə budaq cümlələrində budaq cümlə baş cümləyə ki bağlayıcısı və bəzən də intonasiya ilə bağlanır. Məsələn:

1. Möminə xatun anamızın məzarı üstündə niyə bu qədər əzəmətli sərdabənin tikintisinə başlanmışdı ki, indi də bu iş yarımçıq qalsın? (H. İbrahimov)
2. Gör Aslan bəy nə cür insandır ki, onda müsəlmançılıq nişanəsi belə qalmayıb. (N.Vəzirov)
3. Biz bu işin necə baş verdiyini anlamamışdıq ki, onlar yenidən hücuma keçdi. (İ.Əfəndiyev)
4. Hanı Muradda o ağıl ki, Zibeydəni məmnun etsin. (İ.Əfəndiyev)

Nəticə budaq cümlələrinin digər bir növünə də baş cümlədə elə, bir, elə bir, o qədər sözlərinin işləndiyi cümlələr daxildir. Bu sözlərin işləndiyi nəticə budaq cümələri təyin budaq cümlələrinə bənzəsə də, təyin budaq cümlələrindən fərqlənir. Bu fərqin nədən ibarət olduğunu daha sonra hər iki budaq cümləyə nümunə gətirərək qeyd edəcəyik. Məsələn:

1. Umud "yox"u elə bir dedi ki, Solmaz qorxa-qorxa onun yumşaq barmaqlarından tutdu. ( İ. Məlikzadə)
2. Sürəyyanın söylənəcək o qədər sözü vardı ki, haradan başlayacağını bilmirdi. ( Ə.Məmmədxanlı)
3. Cahan Pəhləvan sağ əlini bir yuxarı qaldırdı ki, Dəbir sözünü tamamlaya bilmədi. (İ.Hüseyn)
4. Atlılarımızın Culfa yolu elə tozlu idi ki, şəhərin darvazaları görünmürdü. (İ.Hüseyn)

Elə sözü nəticə budaq cümləsi ilə yanaşı tərz, dərəcə, xəbər və təyin budaq cümlələrində də işlənir. (6, s.403) Təyin budaq cümləsində işləndikdə elə sözü isimə adi olur və budaq cümlədə də həmin isim nəzərdə tutulur. Nəticə budaq cümləsində isə elə sözü isimə aid olsa da, budaq cümlədə isim nəzərdə tutulmur.

1.Atlılarımızın Culfa yolu elə tozlu idi ki, şəhərin darvazaları görünmürdü. (İ.Hüseyn) (nəticə budaq cümləsi)
2.Quyuda elə gurultu qopmuşdu ki, hər tərəfi titrədirdi. (təyin budaq cümləsi)

Elə sözü xəbər budaq cümləsində işləndikdə onu nəticə budaq cümləsindən ayırmaq daha asan olur.

1.Gürşadın işi elədir ki, ilin yarısından çoxunu çöllərdə olur. (Ə.Vəliyev)
2.Bu quyuların suyu elə imiş ki, onları içmək olmazmış.

Dərəcə budaq cümləsində işləndikdə ya ismi xəbərə, ya da tərz zərfliyinə aid olur.

Elə qəzəblə tərpəndi ki, qulaqlı papağı havada yelləndi. (M.İbrahimov)

Elə sözü işlənən tərz budaq cümlələrini isə nəticə budaq cümlələrindən cümlənin ümumi qrammatik semantikasına əsasən fərqləndirmək mümükündür.

Elə pörtmüş və təntimişdi ki, qonaq dedi bəs böyük bir xəta baş verib. (S.Əhmədov)

Apardığımız tədqiqata əsasən belə nəticəyə gəlirik ki, komponentlər arasında qrammatik bağlılıq bağlayıcı vasitələr ilə yaradıldığı üçün tabeli mürəkkəb cümlələrin strukturunda onlar mühüm rola malikdir. Digər dillərdə olduğu kimi Azərbaycan dilində də tabeli mürəkkəb cümlənin təsnifatı əsas etibarilə budaq cümlənin baş cümlə ilə hansı məqsədlə bağlandığı və bu əsasda da həmin komponentlər arasında hansı semantik bağın olması ilə ölçülür.

Ədəbiyyat

1. Abdullayev Ə.Z. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr (dərs vəsaiti). Bakı, 1974, 418 s.
2. F.Cəlilov. Mürəkkəb cümlə sintaksisi. Bakı: Maarif, 1983, 115 s.
3. F.Veysəlli. Struktur dilçiliyin əsasları. Bakı: Mütərcin, 2008, 308 s.
4.X.İ.Məmmədova, Ə.H.Cavadov. Tabeli mürəkkəb cümlələrin semantik-qrammatik xüsusiyyətləri. Bakı: Mütərcim, 2000, 76s.
5.Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif nəşriyyatı, 1998, 281 s.
6.Q.Ş.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Təhsil nəşriyyatı, 2007, 494 s.
7. Q.Ş.Kazımov. Seçilmiş əsərləri 10 cilddə. III cild. Bakı: Nurlan, 2008, 518s.
8. Y.M.Seyidov, Ə.Z.Abdullayev, A.M.Məmmədli. Azərbaycan dilinin funksional qram-matikası: söz birləşmələri, tabeli mürəkkəb cümlələr, frazeologiya. IV cild. Bakı: (Prestige) 2014, 607 s.

Açar sözlər: budaq cümlə, struktur, tabeli mürəkkəb cümlə, nəticə

Keywords: subordinate clause, structure, complex sentence, result.
Ключевые слова: придаточное предложение, структур, сложно-подчиненные предложения, результат.

The role of connectors in studying structural charac-teristics of adverbial clauses of result in the Azerbaijani language

Summary

This article deals with the role of connectors in studying structural characteristics of adverbial clauses of result in the Azerbaijani language. Classification of complex sentences is held on according to connectors in Azerbaijani language. The examples used in the article have been chosen by investigator. Characteristic peculiarities of adverbial clauses of result occur in its structural features. According to this principle, it is worth to study the structural features of the adverbial clauses of result.

Роль коннекторов в изучении структурных характеристик придаточных обстоятельственных предложений в азербайджанском языке

Резюме

Даннпя статья посвящена роли коннекторов в изучении структурных характеристик наречных предложений результата в азербайджанском языке. Классификация сложных предложений проводится по коннекторам на азербайджанском языке. Своеобразность придаточных обстоятельственных предложений входит внаружу в его структуре. Примеры, использованные в статье, были выбраны исследователем. По этому принципу стоит изучать структурные особенности придаточных обстоятельственных предложении.

RƏYÇİ: dos.S.Abbasova